# "Əminəm ki, xalqımızın həyatında bundan sonra belə xoşbəxt günlər çox olacaq"



**Ötən il sentyabrın 27-də Ermənistanın növbəti hərbi təxribatından sonra Azərbaycan Ordusunun 44 gün davam edən əks-hücum əməliyyatı noyabrın 10-da tarixi qələbəmizlə başa çatdı. Azərbaycan düşmənin kapitulyasiyasına imza atması ilə Vətən müharibəsindəki parlaq qələbəsini rəsmiləşdirdi. Üçtərəfli bəyanatın şərtlərinə əsasən noyabr ayının 20-də işğaldan azad olunan Ağdam rayonu tamamilə Silahlı Qüvvələrimizin nəzarəti altına keçdi. Beləliklə, Ağdam rayonu hərbi əməliyyat keçirilmədən, siyasi yolla işğaldan azad edilərək Azərbaycanın yurisdiksiyasına qaytarıldı. Ağdamın siyasi yolla azad olunması böyük hərbi və diplomatik qələbəmizin nəticəsi idi.**

> ***İkinci Qarabağ müharibəsi bir daha Azərbaycan xalqının əzmini, iradəsini göstərdi, bütün dünyaya göstərdi və bu şanlı Qələbə tarixdə əbədi qalacaq. Bundan sonra Azərbaycan dövləti qalib dövlət kimi inkişaf edəcək. Azərbaycan xalqı müzəffər xalq kimi yaşayacaq, qürur hissi ilə yaşayacaq.***
>
> ***İlham ƏLİYEV***
> ***Azərbaycan Respublikasının Prezidenti***

Azərbaycan Prezidenti İlham Əliyev Ağdam ictimaiyyətinin nümayəndələri ilə görüşündə bu məqamı xatırladaraq, ötən 17 il ərzində – 2003-cü ildən 2020-ci ilə qədər ağdamlı məcburi köçkünlərlə mütəmadi görüşlər keçirdiyini və hər zaman onlara doğma yurdlarına qayıdacaqlarını əminliklə bildirdiyini diqqətə çatdırıb: "Ancaq görürdüm ki, son illər onların gözlərində ümidlər azalır. Görürdüm və bu da təbii idi. Çünki 30 ilə yaxın vaxt keçmişdi. Ancaq mən hər zaman əmin idim ki, bu, olacaq. Sadəcə olaraq, deyə bilmirdim. Sadəcə olaraq, deyə bilmirdim ki, nə vaxt olacaq, necə olacaq. Amma bilirdim ki, olacaq", – deyə dövlətimizin başçısı vurğulayıb.

Prezident İlham Əliyev daha sonra müharibə dövründəki çıxışlarında və "Twit"lərində hər zaman həqiqətləri dediyini və yazdığını vurğulayaraq, Ağdam şəhəri və kəndlərinin digər işğal altındakı ərazilərimizdən bir qədər gec azad olunması səbəbi ilə bağlı fikirlərini də bölüşüb. Ölkə rəhbəri Azərbaycan Ordusunun bu istiqamətdən hücuma keçəcəyi təqdirdə itkilərimizin çox olacağını qeyd edib: "Çünki onlar elə bir istehkam qurmuşdular, elə minalamışdılar ki, buradan bizim hücum etməyimiz, əlbəttə, böyük səhv olardı. Ancaq biz bu istiqamətdə kifayət qədər böyük hərbi qüvvə saxlamışdıq ki, erməni ordusunun əhəmiyyətli hissəsi, bax, burada olsun. Beləliklə biz onların manevr imkanlarını böyük dərəcədə məhdudlaşdırdıq. Onsuz da biz Ağdamı alacaqdıq. Şuşa - alınmaz qala götürüləndən sonra mənim göstərişimlə növbəti istiqamət Ağdam oldu. Mən indi bunu deyə bilərəm. Artıq biz elə bil ki, arxa hissədən gələrək erməni qruplaşmasını mühasirəyə alıb tam məhv edəcəkdik".

Dövlətimizin başçısı Ermənistanın bu həqiqəti başa düşərək təslim olmaq məcburiyyətində qaldığını, diz çökdüyünü, Ağdamın bir güllə belə atılmadan, bir şəhid belə verilmədən azad edildiyini bildirib.

Ölkə rəhbəri çıxışında Respublika Gününün Ağdamda, Ağdam şəhərində qeyd olunmasının təsadüfi olmadığını, bunun çox böyük rəmzi məna daşıdığını da vurğulayıb: "Bu mərasim üçün, bu görüş üçün başqa vaxt da müəyyən oluna bilərdi. Ancaq mən hesab etdim ki, ən düzgün tarix bizim milli bayramımız olan Respublika Günüdür, müstəqillik günüdür. Çünki bu gün burada olmağımız bir daha müstəqilliyimizin nə qədər güclü olmasını göstərir. Əgər biz güclü müstəqil dövlət qurmasaydıq, öz tarixi torpaqlarımızı işğalçılardan azad edə bilməzdik… Ağdam şəhərinin bərpasının başlanğıcı bu gün baş verir, Respublika Günündə. Əminəm ki, bütün nəzərdə tutulmuş planlar Baş Plan əsasında icra ediləcək və Ağdam şəhəri yenidən qurulacaq".

Yeri gəlmişkən, Ağdam sovet dönəmində Azərbaycanın ən inkişaf etmiş şəhərlərindən biri olub. Burada 40 min nəfərdən çox əhali yaşayıb. Birinci Qarabağ müharibəsindən sonra ermənilər Ağdam şəhəri və kəndlərində tarixdə misli görünməmiş vandalizm həyata keçiriblər, xalqımızın tarixi-mədəni irsini dağıdıblar. Rayondakı abidələr, mədəniyyət ocaqları, məscidlər, qəbiristanlıqlar yerlə-yeksan olunub. Düşmən Şahbulaq qalasını erməniləşdirməyə çalışıb, tarixə qarşı cinayətkarlıq edib. Bu ərazilər indi Xirosima və Naqasakini xatırladır. Şəhərdən əsər-əlamət belə qalmayıb.

Erməni işğalçılarının digər ərazilərimizdə olduğu kimi, Ağdam şəhərini və kəndlərini bu cür vəhşiliklə dağıtmaqda əsas məqsədlərindən biri o olub ki, azərbaycanlılar heç vaxt doğma yurdlarına geri dönə bilməsinlər.

Prezident İlham Əliyev Ağdam ictimaiyyətinin nümayəndələri ilə görüşündə bu barədə deyib: "Bunu hansısa yad planetli, necə deyərlər, ünsürlər törətməyiblər. Bunu bizim qonşumuz olan, bizim çörəyimizi yeyən, bizim torpağımızda özünə yuva salan, ancaq bizə qarşı daim nifrət hissi ilə yaşayan ermənilər törədiblər. Bu dağıntılar Birinci Qarabağ müharibəsindən sonra törədildi. Bu, ikinci müharibə dövründə törədilən dağıntılar deyil. Bizim bütün maddi sərvətimiz məqsədyönlü şəkildə dağıdıldı, talan edildi. Tarixi-dini abidələrimiz söküldü. Bunun da bir neçə məqsədi var idi. Birincisi, bizə olan nifrət. İkincisi, Azərbaycan xalqının mədəni irsini bu torpaqlardan silmək məqsədi və əlbəttə ki, gələcəkdə elə bir vəziyyət yaratmaq ki, Azərbaycan əhalisi bu torpaqlara qayıda bilməsin".

Dövlətimizin başçısının vurğuladığı kimi, ermənilər faşizm əməlləri törədərkən dərk edə bilmədilər ki, xalqımız üçün torpaqlarımızın işğaldan azad edilməsi ümummilli məsələdir və heç vaxt Azərbaycan qəsbkarlıqla barışmayacaq. İkinci Qarabağ müharibəsi bir daha Azərbaycan xalqının əzmini, iradəsini təsdiqlədi, bütün dünyaya göstərdi.

Vətən müharibəsində Azərbaycanın qələbəsində dövlətimizin başçısının da dəfələrlə vurğuladığı kimi, bizim birlikdə güclü olmağımız önəmli rol oynadı. Başqa sözlə, xalq-Prezident-ordu vəhdəti ərazi bütövlüyümüzün bərpasında, torpaqlarımızın işğaldan azad edilməsində mühüm əhəmiyyət daşıdı.

Hərbi əməliyyatların aparılmasında Ali Baş Komandan İlham Əliyevin mütəmadi olaraq çatdırdığı qələbə xəbərləri, işğaldan azad olunan yaşayış məntəqələri, düşmənin məhv edilən canlı qüvvəsi və hərbi texnikası barədə məlumatları ölkəmizin hər bir vətəndaşında qürur, fərəh hissi doğurdu, xalqın dövlətimizin başçısına, rəşadətli ordumuza inamını gücləndirirdi.

İkinci Qarabağ müharibəsində Silahlı Qüvvələrimizin döyüş qabiliyyəti və əzmi, maddi-texniki bazası, ordu-xalq-Prezident birliyi qısa müddətdə dövlətimizin ərazi bütövlüyünün təmin olunması istiqamətində möhtəşəm uğurları şərtləndirdi. Azərbaycan 44 gün davam edən müharibədə tam qələbə əldə etdi. Prezident İlham Əliyev Ağdam ictimaiyyətinin nümayəndələri ilə görüşündə vurğuladığı kimi, İkinci Qarabağ müharibəsi Azərbaycanın gücünü, əsgər və zabitlərimizin Vətən sevgisini, milli ruhunu, qəhrəmanlığını, xalqımızın birliyini göstərdi. Ordumuz qırx dörd günün hər birində qəhrəmanlıq dastanı yazdı.

Bəli, belə bir mükəmməl nizami ordunun əsası ulu öndərimiz Heydər Əliyev tərəfindən qoyulub. Dövlətimizin başçısı İlham Əliyev isə son 17 ildə bu məsələyə xüsusi önəm verib. Bunun üçün, ilk növbədə, ölkəmizdə milli həmrəylik, xalq-iqtidar birliyi yaradılıb, ciddi kadr islahatı aparılıb, cəmiyyətdə sosial ədaləti gerçəkləşdirmək üçün bir sıra sosial-iqtisadi islahatlar həyata keçirilib. Eyni zamanda, güclü iqtisadiyyat qurulub, karbohidrogen ehtiyatlarının hasilatı və ixracı istiqamətində mühüm addımlar atılıb.

Ölkə Prezidenti ordu quruculuğunu bütün yuxarıda sadalananlarla paralel aparıb. Ona görə də Ali Baş Komandan İlham Əliyev Ermənistana sarsıdıcı hərbi zərbənin vurulmasında xalq-iqtidar-ordu amilinin əhəmiyyətini yüksək dəyərləndirib.

Vətən müharibəsində xalqımızın parlaq qələbəsi tarixdə əbədi yaşayacaq. Bu uğurdan, bu əzmkarlıqdan daha da ruhlanan, sabaha daha da ümidlə boylanan Azərbaycan dövləti qalib dövlət kimi inkişaf edəcək, Azərbaycan xalqı müzəffər xalq kimi möhtəşəm nailiyyətlərə imza atacaq.

Bu gün işğaldan azad edilən torpaqlarımızda minatəmizləmə əməliyyatları ilə paralel olaraq, ərazilərin elektrik təchizatı tədbirləri həyata keçirilir. Yol infrastrukturunun yaradılması, beynəlxalq hava limanlarının tikintisi üzrə işlər sürətlə aparılır. Qarabağın su təsərrüfatı, meliorasiya sistemi yenidən qurulur. Bütün bu layihələrin reallaşdırılması zamanı müasir iqtisadi və texnoloji innovasiyaların tətbiqinə xüsusi əhəmiyyət verilir. Bu isə Qarabağın yaxın gələcəkdə "ağıllı region" kimi dünyada tanınacağına əlverişli şərait yaradır.

Azərbaycan Prezidenti İlham Əliyev Ağdam ictimaiyyətinin nümayəndələri ilə görüşündə bütün bunlar barədə də ətraflı bəhs edib. Dövlətimizin başçısı çıxışında erməni vandalizminin qurbanı olan Ağdam şəhərində aparılacaq bərpa-quruculuq layihələri nəticəsində burada yüksək sosial şərait yaradılacağını diqqətə çatdırıb: "Bu gün sizə təqdim ediləcək Ağdam şəhərinin baş planı bu sözümün təsdiqidir. Biz elə bir şəhər quracağıq, elə bir Ağdam quracağıq ki, bütün dünya üçün örnək olacaqdır".

Ölkə rəhbəri Ağdama səfəri çərçivəsində şəhərin baş planı, Şahbulaq qalasının yenidənqurma planı ilə tanış olması, şəhər 1 saylı məktəbin yeni binasının, Ağdam Sənaye Parkının, Bərdə-Ağdam avtomobil yolunun təməlqoyma mərasimlərində iştirak etməsi ölkə rəhbərinin vurğuladığı kimi, bu tarixi ərazinin bütün dünya üçün örnək olacaq bir şəhər kimi qurulacağı əminliyindən xəbər verir.

***Vaqif BAYRAMOV,***
***"Xalq qəzeti"***